Directions to improve Azerbaijan's position in property rights management indicators

Rasmiyya Shirinova
Senior research fellow, Institute of Economics of ANAS,
department of "Theoretical bases of economic policy
and history of economic thought". Azerbaijan.
E-mail: rasmiyashirinova@gmail.com
https://orcid.org/0000-0002-4039-1822

Vusala Abbasova
Senior research fellow, Institute of Economics of ANAS,
department of "Theoretical bases of economic policy
and history of economic thought". Azerbaijan.
E-mail: vusala52@mail.ru
https://orcid.org/0000-0001-5400-2077

Abstract. The presented article analyzes and evaluates the international rating of Azerbaijan's property rights management. In particular, the legal and economic aspects of the problem are examined in more detail. It is noted that Azerbaijan's position on the property rights index in international rankings was positively assessed and reached the best indicator of the last 5 years. It should be noted that the privatization of property and the protection of property rights have come to the fore in the implementation of economic reforms. Taking this into account, the article notes that the state has been able to improve Azerbaijan's position on this index by carrying out serious reforms in the judicial sphere.
Keywords: property, rating, law, valuation, competitiveness.

JEL D23; **UDC** 330.111.62
To cite this article: Shirinova R., Abbasova V. (2021). Directions to improve Azerbaijan's position in property rights management indicators. *Economic Growth and Social Welfare*, Issue II, pp. 148-156.
Article history: Received – 02.02.2021; Accepted – 21.06.2021.

Mülkiyyət hüququnun idarə olunması göstəriciləri üzrə Azərbaycanın mövqeyinin yaxşılaşdırılması istiqamətləri

Rəsmiyyə Şirinova
Böyük elmi işçi, AMEA İqtisadiyyat İnstitutu,
"İqtisadi siyasətin nəzəri əsasları və iqtisadi fikir tarixi" şöbəsi
E-mail: rasmiyyashirinova@gmail.com
https://orcid.org/0000-0002-4039-1822

Vüsalə Abbasova
Böyük elmi işçi, AMEA İqtisadiyyat İnstitutu,
"İqtisadi siyasətin nəzəri əsasları və iqtisadi fikir tarixi" şöbəsi
E-mail: vusala52@mail.ru
https://orcid.org/0000-0001-5400-2077

Annotasiya. Təqdim olunmuş məqalədə Azərbaycanın mülkiyyət hüququnun idarə olunması üzrə beynəlxalq reytinq göstəricisi təhlil edilir və qiymətləndirmələr aparılır. Xüsusən də bu aspektdə problemin hüqui tərəfləri və iqtisadi tərəfləri daha geniş araşdırılır. Qeyd edilir ki, Beynəlxalq reytinqlərdə mülkiyyət hüququ indeksi üzrə Azərbaycanın mövqeyi müsbət mənada qiymətləndirilmiş və sıralamada son beş ilin ən yaxşı göstəricisi əldə edilmişdir. Həzərə almaq lazımdır ki, iqtisadi islahatların həyata keçirilməsində mülkiyyətin özəlləşdirilməsi və mülkiyyət hüququnun qorunması daha vacib məsələ kimi ön plana çıxmışdır. Bunu nəzərə alaraq məqalədə qeyd edilir ki, dövlət məhkəmə-hüquq sahəsində ciddi islahatlar aparmaqla Azərbaycanın bu indeks üzrə mövqeyini yaxşılaşdıra bilmişdir.
Açar sözlər: mülkiyyət, reytinq, hüquq, qiymətləndirmə, rəqabətqabiliyyətlilik.

JEL D23; **UDC** 330.111.62
Məqaləyə istinad: Şirinova R., Abbasova V. (2021). Mülkiyyət hüququnun idarə olunmasi göstəriciləri üzrə Azərbaycanin mövqeyinin yaxşilaşdirilmasi istiqamətləri. *İqtisadi Artım və İctimai Rifah*, № 2, səh. 148-156.
Məqalə tarixçəsi: göndərilib – 02.02.2021; qəbul edilib – 21.06.2021.

Giriş / Introduction

Müstəqillik əldə etdikdən sonra Azərbaycanda mülkiyyətin qorunması sistemində ciddi dəyişikliklər olmuş, milli səviyyədə qanunvericilikdə insan hüquqlarının müdafiəsi sahəsində yeniliklər baş vermiş, həmin qanunverici aktların təmin olunması və səmərəli işləməsi mexanizmləri yaradılaraq beynəlxalq standartlara uyğunlaşdırılmışdır. Bu aspektdə keçən dövr ərzində ölkəmiz ardıcıl olaraq insan hüquqlarının qorunması və mülkiyyət hüququnun müdafiəsi sahəsində beynəlxalq səviyyəli müqavilələrə imza ataraq hüququn aliliyi baxımından müəyyən mənada öhdəliklər götürmüşdür (ARAM, 2021). Bəllidir ki, ölkədə istər insan hüquqlarının,

istərsə də mülkiyyət hüququnun qorunması ölkəmizin Avropa Şurasına daxil olması ilə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin bu sahədə inteqrasiyanı təmin etməsini əsaslandırmışdır. Bu ali orqanın mülkiyyət hüququnun qorunması ilə bağlı ümumi yanaşmaları birləşdirsək üç əsas norma üzərində dayanmaq olar:

1. öz şəxsi mülkiyyətindən maneəsiz istifadə etmək imkanı;
2. sahib olduğu mülkiyyətdən məhrum edilmənin yolları və şərtləri;
3. mülkiyyətdə istifadə zamanı nəzarətin həyata keçirilməsi və dərəcəsi (Yusifov, Bayramov, 2013, s.5).

Hesabatda nəzərdə keçirilən mülkiyyət hüququ və torpaq resurslarının idarə olunması indeksdə ilk bölmə olan "Müəssisələr üzrə ümumi reytinq"də yer almışdır. Mülkiyyət hüququnun müəyyən olunması hər bir ölkə üçün nəzərdə tutulan sorğunun nəticəsində müəyyən olunur və özlüyündə ölkə ərazisində maliyyə resurslarına malik olan bütün şəxslərin də rəyi nəzərə alınmaqla həyata keçirilir. Sıralamada ilk 1-7-ci yerləri tutan ölkələr mülkiyyət hüququnun ən şəffaf şəkildə qorunmasını və təmin edilməsini əks etdirir.

Metodologiya

Tədqiqatda müqayisə, sistemli yanaşma, riyazi-statistik təhlil metodlarından istifadə olunmuşdur.

Əsas hissə / Main Part

Nəticələr və müzakirə

Mülkiyyət hüququnun idarə olunmasi göstəriciləri üzrə Azərbaycanda müasir vəziyyət.

Ölkəmizdə mülkiyyət hüququnun tam təmin olunması və müdafiəsi ilə bağlı bir sıra çatışmazlıqlar vardır ki, onlara aşağıdakları aid edə bilərik:

- istər ölkəmizdə, istərsədə dünya ölkələri üçün mülkiyyət hüququnun qorunmasında ən ciddi əngəllərdən biri şübhəsiz ki, "məhdudlaşdırmalardır". Qanunvericiliyin tələbi pozulmasa belə bu amil istər istəməz müəyyən mənada mülkiyyət hüququnun qorunmasında ən ciddi əngəl kimi görünür.
- mülkiyyət hüququnun qorunması və ya onun məhdudlaşdırılması zamanı həyata keçirilən tədbirlər zamanı müvafiq orqanlar digər məsələləri-xüsusi ilə mülkiyyət hüququnun əhatə dairəsinin geniş olmasını unudurlar. Burada mülkiyyət hüququnun qorunmasında mülkiyyətin reallaşdırma formalarından asılı olaraq ona müdaxilələr fərqləndirilməli və ya dərəcələndirilməlidir.

Şübhəsiz ki, zaman keçdikcə mülkiyyət hüququnun qorunması ilə bağlı ilk növbədə məhkəmə-hüquq sahəsində islahatları davamlı olaraq həyata keçirtmiş, həm hüquqi sənədlərin, həm də hakimlərin beynəlxalq hüquq normalarına uyğunlaşdırılması uğurla həyata keçirilmişdir. İlk olaraq onu qeyd etmək lazımdır ki, mülkiyyət hüququnun qorunmasını Azərbaycan Respublikasının Konstitutsiyasının 13 və 29-cu (həmçinin maddə 30 və 31) (ARK, 2016, m.13, 29, 30, 31]. maddələri daha dolğun ifadə etmişdir. Qeyd olunur ki, "Azərbaycan Respublikasında mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur. Mülkiyyət dövlət mülkiyyəti, xüsusi mülkiyyət və bələdiyyə mülkiyyəti növündə ola bilər. Mülkiyyətdən insan və vətəndaş hüquqları və azadlıqları, cəmiyyətin və dövlətin mənafeləri, şəxsiyyətin ləyaqəti əleyhinə istifadə edilə bilməz. Hər kəsin mülkiyyət hüququ vardır. Mülkiyyətin heç bir növünə üstünlük verilmir. Mülkiyyət hüququ, o cümlədən xüsusi mülkiyyət hüququ qanunla qorunur. Hər kəsin mülkiyyətində daşınar və daşınmaz əmlak ola bilər. Mülkiyyət hüququ mülkiyyətçinin təkbaşına və ya başqaları ilə birlikdə əmlaka sahib olmaq, əmlakdan istifadə etmək və onun barəsində sərəncam vermək hüquqlarından ibarətdir. Heç kəs məhkəmənin qərarı olmadan mülkiyyətindən məhrum edilə bilməz. Əmlakın tam müsadirəsinə yol verılmir. Dövlət ehtiyacları üçün mülkiyyətin özgəninkiləşdirilməsinə yalnız qabaqcadan onun dəyərini ədalətli ödəmək şərti ilə yol verib bilər. Xüsusi

mülkiyyət sosial öhdəliklərə səbəb olur. Sosial ədalət və torpaqlardan səmərəli istifadə məqsədi ilə torpaq üzərində mülkiyyət hüququ qanunla məhdudlaşdırıla bilər. Dövlət vərəsəlik hüququna təminat verir" (ARK, 2016, m.29, 30).

Dünya İqtisadi Forumu "Qlobal Rəqabətqabiliyyətlilik" indeksində əqli mülkiyyətin qorunması üzrə Azərbaycanın mövqeyini sıralamada 36-cı olmaqla 63 balla qiymətləndirmişdir (GCR, 2019). Ümumən götürdükdə əqli mülkiyyətin qoruması üzrə əsas ciddi araşdırma mərkəzi kimi "Beynəlxalq İntellektual Mülkiyyət" əsas götürülür. Mərkəz əsasən 50-ə yaxın ölkələr üzrə araşdırmalar apararaq reytinqi müəyyənləşdirir. Reytinq 0-50 bal arası qiymətləndirərək ölkələri sıralayır. Mərkəzin 2019-cu il üçün hesablamalarına görə intellektual mülkiyyətin qorunması üzrə ilk sıralarda ABŞ (42,6), B.Britaniya (42,2), İsveç (41,0), Fransa (41,0) və s. ölkələr qərarlaşmışdır. Maraqlıdır ki, MDB ölkələri içərisində yalnız Rusiya 19,4 balla (29-cu yer) və Ukrayna 15,0 balla (39-cu yerdə) təqdim olunmuşdur (GCR, 2019).

İntellektual mülkiyyətin qorunması üzrə əsasən 3 göstəriciyə diqqət yetirilməli və nəzərə alınmalıdır. Bunlara intellektual mülkiyyət hüquqlarının qorunması (bütövlükdə mülkiyyət hüququnun qorunması dərəcəsindən bilavasitə asılıdır), patentlərin verilməsi və qorunması və bu əsasda müəlliflik hüquqlarının piratlığı aid edilir. 2016-cı ildən başlayaraq bu indeksin hesablanması və onun sosial-iqtisadi mahiyyətini ortaya qoymaq üçün tədqiqata olaraq bir sıra göstəricilər əlavə etmişlər. Bunlara aiddir: maliyyə əlçatanlığı, insan kapitalının keyfiyyəti, birbaşa investisiyaların cəlbediciliyi, ixtira fəaliyyəti, qabaqcıl bazar texnologiyaları və yaradıcılıqla məşğul olmanın sadəliyi.

Beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyinin müqayisəli qiymətləndirilməsi

Torpaq resurslarının idarə olunması (Torpaq administrasiyasının keyfiyyət) üzrə hesablanan qiymət özlüyündə aşağıdakı göstəricilər sistemini əhatə edir:

- əsas infrastruktur obyektlərinin etibarlılıq göstəricisi;
- torpaq resurslarının idarə olunması üzrə mövcud məlumatların şəffaflığı dərəcəsi;
- torpaq resurslarının coğrafi əhatə dairəsi və yerləşməsindəki münbitlik və əlverişlilik səviyyəsi;
- torpaq resurslarının idarə olunmasındaqarşıya çıxan mübahisələrin həlli səviyyəsi və bu aspektdə mülkiyyət hüququnun hansı səviyyədə qorunması dərəcəsi (mülkiyyət hüququnun təmin olunmasındakı əlçatanlıq dərəcəsi) (DB, 2021).

Torpaq resurslarının idarə olunması üzrə qiymətləndirmə 0-30 arasında ən yaxşı mövqe kimi dəyərləndirilmişdir. Sonrakı sıralamalar ölkələrin bu indeks üzrə mövqelərinin heç də qənaətbəxş olmadığını göstərir. Hər iki göstəricilər qlobal rəqabətqabiliyyətlilik reytinqində dəstəkləyici mühit olmaqla əsasən əmlak hüquqlarının necə təmin olunmasını əks etdirir. Hesablanma düsturu aşağıdakı kimidir:

$$Score_{i,c} = (value_{i,c} - wp_i) / (frontier_i - wp_i) \times 100$$ (GCR, 2018, p.642).

Burada $value_{i,c}$- c ölkəsinin i indikatoru üzrə ilkin qiyməti ("rawvalue");
wp_i-i indikatoru üzrə ən əlverişsiz qiymət;
$frontier_i$- i indikatoru üzrə ən yaxşı qiymətdir.

Torpaq administrasiyasının keyfiyyəti 0-30 (ən yaxşı) – 48.3 (2018-ci il üzrə).
$value_{i,c}$ - c ölkəsinin i indikatoru üzrə ilkin qiyməti ("rawvalue")= 14.5 (GCR, 2018, p.85).
wp_i-i indikatoru üzrə ən əlverişsiz qiymət = 0 (GCR, 2018, p.646).
$frontier_i$- i indikatoru üzrə ən yaxşı qiymət = 30 (GCR, 2018, p.646).
$(14.5-0)/(30-0) \times 100 = 48.3$

Cədvəl 1. Qlobal rəqabətqabiliyyətlilik hesabatında (2018-2019-cu illər üzrə) mülkiyyət hüququ və torpaq resurslarından istifadə üzrə Azərbaycanın mövqeyi.

Pillənin adı	İndikatorlar	Reytinq üzrə münasib yerlər	2018-2019-cu il xal	2018-2019-cu il yer
Qlobal rəqabətqabiliyyətlilik indeksi		1-10 ən yaxşı	60.0	69
Müəssisələr	Mülkiyyət hüquqları	(1-7) 1-çox zəif, 7-çox yaxşı	58,2	46
	Əqli mülkiyyətin qorunması	1-7	63	36
	Torpaq administrasiyasının keyfiyyəti	0-30	48,3	74

Mənbə: (RSM, 2021).


Təqdim olunmuş cədvəl məlumatlarına əsasən qeyd edə bilərik ki, Azərbaycanın hər üç indikator üzrə mövqeyi orta balla qiymətləndirilmişdir. əqli mülkiyyətin qorunması üzrə mövqeyimizi nisbətən müsbət dəyərləndirmək olar.

Mülkiyyət Hüquqları Alyansı bütün dünyada mülkiyyət hüquqlarının qorunmasına həsr edilmişdir. 2007-ci ildən bu qurum mülkiyyət hüquqlarının qorunması vəziyyətini hesablamaq məqsədilə illik Beynəlxalq Mülkiyyət Hüquqları İndeksini qurmaq üçün Hernando de Soto İttifaqını təsis etmişdir (AOE, 2021).

Bu indeks dünyanın bütün ölkələrində mülkiyyət hüququnun vəziyyətinin barometri kimi xidmət etmək üçün inkişaf etdirilmişdir. Mövzu ilə bağlı ədəbiyyatın geniş araşdırılmasından sonra ciddi bir konseptualizasiya əldə edilmişdir. Nəhayət, mülkiyyət hüquqları sahəsi üzrə bir neçə ekspert və peşəkarlarla məsləhətləşərək əsas kateqoriyalar (bundan sonra “komponentlər” və ya “sub-indekslər”) və maddələr dəsti təsis edildi.


Şəkildə Mülkiyyət Hüquqları Alyansının üç komponenti göstərilmişdir: Hüquqi və siyasi mühit; Fiziki Mülkiyyət hüquqları; İntellektual mülkiyyət hüquqları (bax şəkil)

Beynəlxalq reytinqlərdə mülkiyyət hüququnun qorunması üzrə interval adətən 0-12 balla qiymətlənirilərək ölkələr sıralanır (IPRI, 2018). Dünya iqtisadi forumu isə qlobal rəqabətqabiliyyətlilik indeksi üzrə mülkiyyət hüququnun qorunmasını 0-7 bal arası qiymətləndirmişdir. Təqdim olunmuş aşağıdakı diaqramda Azərbaycanın bu indikator üzrə mövqeyini daha aydın görmək olar (bax diaqram).



Şəkil 1. Beynəlxalq Mülkiyyət Hüquqları İndeksinin strukturu.
Mənbə: IPRI, 2018, s.10.

Diaqram 1. Mülkiyyət hüququnun qorunması üzrə Azərbaycanın mövqeyi.



Mənbə: MISPS, 2021.

Son 5 il üçün diaqram məlumatlarına əsasən söyləmək olar ki, Azərbaycanın mövqeyində müsbət mənada ciddi irəliləyiş olmuşdur. Belə ki, 2015-ci ildə Azərbaycan 4,1 balla 102-ci yerdə qərarlaşdığı halda 2018-ci ildə 24 pillə irəliləyərək 5,0 balla 78-ci yerdə qərarlaşmışdır. Müvafiq olaraq 2016-cı ildə 4,1 balla 105-ci yer, 2017-ci ildə 3,9 balla 115-ci yerdə qərar tutmuşdur. 2017-ci ilə nisbətdə 2018-ci il üçün isə dəyişiklik ciddi surətdə olmuşdur ki, bu da nəzərdən qaçmamlıdır. Ümumi reytinqə baxdıqda isə Azərbaycanın mövqeyini aşağıdakı cədvəl üzrə qiymətləndirmək olar (bax cədvəl 2).

Cədvəl 2. Mülkiyyət hüququnun qorunması üzrə Azərbaycanın dünya ölkələri arasında mövqeyi.

Reytinq üzrə mövqe	Ölkələr	2018-ci il üzrə mövcud vəziyyət
1	Finlandiya	8,7
2	Y.Zelandiya	8,6
3	İsveçrə	8,6
4	Norveç	8,5
5	Sinqapur	8,4
6	İsveç	8,4
7	Avstraliya	8,3
8	Hollandiya	8,3
9	Lüksemburq	8,3
10	Kanada	8,3
16	Almaniya	7,9
24	Estoniya	7,2
36	Litva	6,4
56	Latviya	5,7
66	Türkiyə	5,3
74	Gürcüstan	5,1
78	**Azərbaycan**	**5,0**
84	Rusiya	4,9
88	Qazaxıstan	4,8
95	Ermənistan	4,7
110	Ukrayna	4,3

Mənbə: IPRI, 2018, p.13.

Mülkiyyət hüququ üzrə indeksdə ölkələr 5 bölmə üzrə qruplaşdırılaraq təsnifləşdirilmişdir. İlk 20-lik ölkələr bu sahədə daha üstün olmaqla səciyyələnmişdir. Azərbaycan Türkiyə, Yunanıstan, Meksika, Xorvatiya, Rusiya, Qazaxıstan və Argentinanın da yer aldığı qrupda qərarlaşmışdır.

Nəticə / Conclusion

- ümumi mənada ölkə vətəndaşlarının öz hüquqlarının yetərli səviyyədə bilməməsi hesab edirik ki, bu sahədə ciddi problemlərdən biri kimi çıxış edir. Bu mənada ilk olaraq təklif olunur ki, ölkə vətəndaşlarının öz hüquq və haqlarının daha dolğun formada bilməsi üçün ictimai tədbirlərin artırılması həyata keçirilsin.

- mülkiyyət hüququnun daha yaxşı qorunması üçün mülkiyyət işlərində mütənasiblik işləri təkmilləşdirilməlidir.

- mülkiyyət hüququnun qorunmasında nə qədər beynəlxalq hüquq və normalar diqqətdə saxlanılsa da bu sahədə milli dəyərlər və təcrübələr mütləq ön plana çəkilməlidir.

- ölkədə mülkiyyət hüququnun daha dolğun qorunmasında ən ciddi əngəl olan "məhdudlaşdırma" nə qədər də qanunvericilik tərəfindən əsaslandırılsa da məhdudlaşdırma: aydın olmalı; tərəflər üçün əl çatan olmalı; nəticələri əvvəlcədən hesablanmalı və şəffaf olmalı və dəqiq hesablanmış olmalıdır. Mülkiyyət hüququnun məhdudlaşdırılması ilə əlaqədar "müdaxilələr" zaman tərəflərin maraqları (cəmiyyətin, şəxsin və dövlətin) maksimum təmin olunmalı, tərəflərin üzərinə bu proses əlavə "yükə" çevrilməməlidir.

- mülkiyyət hüququnun qorunması zamanı nəzərə alınmalıdır ki, onun təmin edilməsi təkcə ölkənin mövcud qanunvericiliyi ilə məhdudlaşmır. Bu aspektdə mülkiyyət hüququnun təmin edilməsi və məhdudlaşdırılması zamanı: iqtisadi, siyasi, mədəni, sosial, beynəlxalq və digər amillər nəzərə alınaraq yanaşılmalıdır.

İstifadə edilmiş ədəbiyyat / References

AOE (2021). The Ages of Exploration. https://exploration.marinersmuseum. org/ sub ject/ hernan do-de-soto/. Accessed: February, 2021.

ARAM (2021). Azərbaycan Respublikası Ali Məhkəməsi. http://supremecourt. gov. az/post/ view/905. Istinad tarixi: fevral, 2021.

ARK (2016). Azərbaycan Respublikasının Konstitutsiyası. Bakı.

DB (2021). Metodology of Doing Business. http://www.doingbusiness.org/ Metho dology. Accessed: January, 2021.

GCR (2018). The Global CompetitivenessReport 2018. KlausSchwab, World Economic Forum, Geneva, Switzerland, 2018.

GCR (2019). TheGlobalCompetitivenessReport http://www3.weforum. org/docs/ WEF_ TheGlobalCompetitivenessReport2019.pdf. Accessed: February, 2021.

IPRI (2018). International Property Rights İndex, 2018. Full Report.

MISPS (2021). Mezhdunarodnyy indeks soblyudeniya prav sobstvennosti. https://knoema.ru/atlas/topics/Mirovyye-reytingi/Mirovyye-reytingi/ Mezhdunarodnyy-indeks-soblyudeniya-prav-sobstvennosti. Accessed: February, 2021.

RSM (2021). Reyting stran mira po indeksu global'noy konkurentospo¬sobnosti. https://gtmarket.ru/ratings/global-competitiveness-index/info.

Yusifov Ş., Bayramov R. (2013). Mülki hüquq. Bakı: Qanun.

Направления по улучшению позиции Азербайджана по показателям управления имущественными правами

Расмия Ширинова
Старший научный сотрудник, Институт Экономики НАНА,
Отдел «Теоретических основ экономической политики»
и история экономической мысли». Азербайджан.
E-mail: rasmiyashirinova@gmail.com

Вусала Аббасова
Старший научный сотрудник, Институт Экономики НАНА,
Отдел «Теоретических основ экономической политики»
и история экономической мысли». Азербайджан.
E-mail: vusala52@mail.ru

Резюме. В представленной статье анализируется и оценивается международный рейтинг управления имущественными правами Азербайджана. В частности, более подробно изучаются правовые и экономические аспекты проблемы . Отмечается что позиция Азербайджана по индексу прав собственности в международных рейтингах была оценена положительно и достигла лучшего результата за последние 5 лет. Следует отметить, что приватизация собственности и защита прав собственности вышли на первый план в проведении экономических реформ. Принимая это во внимание, в статье отмечается, что государству удалось улучшить положение Азербайджана по этому показателю, проведя серьезные реформы в судебной сфере